# Prezident İlham Əliyev Azərbaycan xalqının və onun dövlətinin XXI əsrdəki statusunu müəyyən edən zəfərin memarıdır

Bakı, 6 noyabr, AZƏRTAC

Orxan Vəliyev

Türk xalqları tarixən lider əsaslı bir millət olub. Yəni, türklərin qurduqları dövlətlər böyük sərkərdələrin şəxsində tanınıb və mühafizə edilib. Bu səbəblə Azərbaycan xalqının mürəkkəblikdən mütəşəkkil çətinlikdən çıxış yolu da məhz qurucu liderlərlə mümkün olacaqdı. Bu çərçivədə Azərbaycan modern hekayəsində intellektual və siyasi müstəvidə mühüm şəxsiyyətlər yetişdirib. Buraya Mirzə Fətəli Axundzadədən başlayaraq ilkin modern aydınlarımızı, cümhuriyyətin qurucularını, sovet dövrünün çətin sisteminə baxmayaraq Azərbaycan xalqına xidmət etmiş aydınlar, dövlət adamlarını daxil etmək mümkündür. Ancaq Azərbaycanın modern siyasi tarixi dedikdə daha çox üç mərhələ nəzərdə tutulur. Cümhuriyyətin elanı, sovet dövrü və müstəqilliyin bərpası dövrü ki, birbaşa Ulu Öndər Heydər Əliyevin xidmətləri ilə bağlıdır. Birinci mərhələdə Azərbaycanın odövrkü aydınları, liderləri xalqın siyasi varlığı üçün təşəbbüs göstərib və cümhuriyyəti elan ediblər. İkinci dövrdə isə Ulu Öndər Heydər Əliyevin həm sovet sisteminin mürəkkəb sistemi içində xalqa xidməti, həm də müstəqilliyin bərpasından sonra dövlət quruculuğunun konturlarını müəyyən edən xidməti yer tutub. Bununla belə Azərbaycan xalqını öz yurdunda tam hakim edəcək, bayrağını vətənin hər qarşısında dalğalandırmağı təmin edəcək zəfər əskikliyi əsas məsələ olaraq qalmaqda idi. Qısası Azərbaycan xalqı üçün əsas əskiklik tam təşəkküllü suveren olmaq idi.

Bunu AZƏRTAC-a açıqlamasında Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri, dosent Orxan Vəliyev deyib.

Orxan Vəliyev bildirib ki, zəfər qazanmaq millətlər, dövlətlər üçün tarixən həlledici olub. Çünki tarix və iqtisadiyyat zəfərin və zəfəri qazananların çevrəsində formalaşır: “Türkiyədə doktorantura təhsili aldığım illərdə Ankarada Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün dəfn edildiyi Anıtqəbiri ziyarət etmişdim. Anıtqəbir tamamilə türklərin zəfərinə həsr edilmişdi və onlar adına böyük nüfuz və qürur mənbəyi idi. Azərbaycan xalqı cümhuriyyət elan etmişdi, müstəqilliyini bərpasına nail olmuşdu. Lakin öz vətənində suveren olmağın ilkin şərtlərindən olan ərazi bütövlüyü işğalla kobudcasına pozulmuşdu və torpaqların azad edilməsi həm xalqın, həm də dövlətin gündəliyində əsas məsələ idi. Belə olan halda Azərbaycan xalqının və dövlətinin XXI əsrdə layiq olduğu statusu ancaq və ancaq zəfər müəyyən edə bilərdi”.

Onun sözlərinə görə, qədim dövlətçilik tarixinə, təcrübə və yaddaşına sahib Azərbaycan xalqının suverenliyi Kürəkçay, Gülüstan və Türkmənçay kimi müstəmləkə dövrünün süni müqavilələri ilə müəyyən edilmişdi. Sovet işğalından qısa müddət sonra isə tarixi Azərbaycan torpaqları olan Qarabağda süni DQMV yaradıldı və bununla münaqişənin də təməli atılmış oldu. Beləliklə müstəqilliyini bərpa etmiş Azərbaycan üçün həll edilməli olan əsas məsələ işğala son qoymaq olmalı idi: “Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycançılıq, Azərbaycan millətçiliyi çərçivəsində müəyyən edilmiş strateji xətti miras alaraq daha da irəliyə aparmaq hədəfini qoymuşdu. Buna müvafiq olaraq iqtidarının ilk vaxtlarındaca Azərbaycan xalqını işğala son qoyularaq torpaqların azad olunacağına əmin etməyə müvəffəq olmuşdu. Başlanğıcda qeyd etdiyim kimi, güclü lider ətrafında birləşmək türk xalqlarının əsas xüsusiyyətlərindəndir. Bu mənada Azərbaycan xalqı 2003-cü ildən etibarən İlham Əliyevin liderliyi ətrafında birləşib 2020-ci ildə əldə ediləcək zəfər üçün çalışmağa başladı”.

Orxan Vəliyevin sözlərinə görə, Qarabağda əldə edilən hərbi-siyasi zəfər Azərbaycan xalqının iki əsrlik nakam tarixini kökündən dəyişməyin ilkin addımı idi. “Ancaq Prezident İlham Əliyev böyük dövlət

adamlarına xas olduğu kimi tələskənlikdən ziyadə dövlət qurucusu kimi bütün qərarları vaxtlı-vaxtında icra etməyi bacardı. O səbəblə Azərbaycan xalqı onun "nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm!" sözünə etibar edirdi, nəticəni isə Şuşada, Xankəndidə və Vaşinqtonda gördü. Belə ki, son olaraq Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan razılaşma da məhz Prezident Əliyevin konstruktiv siyasətinin nəticəsi idi".

Digər tərəfdən, Prezident Əliyevin öndərliyində əldə edilən zəfər Türkiyə ilə olan münasibətlərin imzalanan Şuşa Bəyannaməsi ilə institutlaşdırılmasına, regionun və Türk dünyasının inkişafına töhfə verib. Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Qarabağda təməlini atdıqları, açılışını etdikləri mədəni, təhsil və dini mərkəzlərlə türk dünyasında mədəni birliyin təsisinə böyük xidmət edib.

"Bir məsələni də qeyd etməyi zəruri hesab edirəm. Belə ki, zəfər Azərbaycan dövlətini BMT-yə üzv dövlətlər arasında müstəqilliyini, suverenliyini tarixi zəfərlərlə təmin və təsis etmiş azsaylı dövlətlər arasına salıb. Prezident İlham Əliyevin Şuşanın işğaldan azad edilməsindən sonra etdiyi çıxışı Azərbaycan xalqının 250 illik nakam tarixinin arxada qaldığı mürəffəh və müzəffər tarixin başladığı dövrün simvolu idi. Zəfər çıxışı, sadəcə, fiziki olaraq Azərbaycanda yaşayan soydaşları deyil, mənim kimi xaricdə doktorantura təhsili alan və orada qalmağı hədəfləyən gənc elm adamlarının vətənə dönməyinə də vəsilə oldu. Belə ki, Prezidentin Zəfər münasibətilə etdiyi tarixi çıxışı mənim vətənə dönməyimin əsas motivasiyası oldu. Ölkə başçısı sanki həmin çıxışla dönmək imkanı olanlar mütləq vətənə dönməli və Azərbaycanın yenidən inşası ərəfəsində öz peşə və bacarıqları çərçivəsində töhfələrini verməlidir tapşırığını verdi.

Qısası Prezident İlham Əliyev Azərbaycan xalqının və onun dövlətinin XXI əsrdəki statusunu müəyyən edən zəfərin memarıdır!

Əsas olan Azərbaycandır!", - deyə o əlavə edib.